# Güney Azərbaycanda Milli Hökumət necə yarandı?




(əvvəli ötən sayımızda)

***Digər nümayəndə Hilal Naseri isə Milli Məclisin yaradılmasının tərəfdarı olduğuna dair fikirlərini belə bildirdi: "Bu konqres Müəssislər Məclisi kimidir və siz beş milyon insanın nümayəndəsisiniz. Mən təklif edirəm ki, bu Müəssislər Məclisi Əyalət və Vilayət Şuraları əvəzinə Milli Məclisimizi formalaşdırsın".***

***Beləcə, konqresdəki ilk çıxışlarda ehtiyatla dilə gətirilən Əyalət və Vilayət Şuraları tələbi get-gedə cəsarətlə səslənən Milli Məclis tələbi ilə əvəzlənmiş oldu.***

***Daha sonra Çeşmazer öz çıxışında bu tələbləri bir addım da qabağa ataraq, "Azərbaycanın muxtariyyətini tamamlamaq üçün bu parlamenti Milli Məclis adlandıraq və Azərbaycan Milli Silahlı Qüvvələri yaradılsın" deyərək muxtariyyət tələbini açıq şəkildə bildirdi.***

Pişəvəri yekun nitqində qərarların hazırlanması və günortadan sonra Konqresə məruzə edilməsi üçün beş nəfərdən ibarət komissiya yaradılmasını təklif edib bunları dedi: "Bu, Müəssislər Məclisidir. Məncə Milli Məclisin və ya Əyalət Şuralarının seçilməsi vəzifəsi [Təsis Məclisinin] qərarlarında aydın şəkildə göstərilməlidir".

Əyalət və Vilayət Şuralarının yenidən yaradılmasına üstünlük verən Azərbaycan Xalq Konqresi iki günlük uzun-uzadı çıxışlardan və qızğın müzakirələrdən sonra verdiyi bəyanatda yüz əlli min nəfərin imzası və yeddi yüz nümayəndənin iştirakı ilə keçirilən Milli Konqresin Azərbaycan xalqının iradəsi ilə özünü Qurucu Məclis elan etdiyini, Əyalət və Vilayət Şuralarının yaradılması əvəzinə Milli Məclisin yaradılması qərarının alındığını, bununla da kifayətlənməyərək, milli muxtariyyət prosesini başa çatdırmaq üçün ən qısa zamanda Milli Hökuməti qurmaq qərarına gəldiyini açıqladı.

Azərbaycan Xalq Konqresinin dərc etdiyi 14 maddəlik bəyannamədə Çeşmazerin Azərbaycan Milli Silahlı Qüvvələrinin yaradılması təklifindən başqa, konqresdə irəli sürülən bütün radikal təkliflər öz əksini tapdı. Ancaq görünən odur ki, sözügedən bəyannamədə sırf siyasi mülahizələrə görə, bu barədə açıq bir şəkildə danışılmayıb. Yoxsa milli ordu formalaşmadan milli hökuməti, onun qurumlarını və nailiyyətlərini qorumaq mümkün olmayacaqdı.

Əslində, yuxarıda da dilə gətirdiyimiz kimi, Azərbaycan Demokrat Firqəsinin yazılarında "Fədai" adlandırılan milli ordu Azərbaycan Xalq Konqresi işə başlamamışdan əvvəl xalq tərəfindən qurulmuşdu və konqresin qurulduğu günlərdə Azərbaycanın Sərab və Miyana kimi bəzi şəhərləri və bir çox kəndləri bu fədaiyi dəstələrinin kontrolu altındaydı. Qənaətimizcə, Azərbaycan Xalq Konqresində çıxışların və qərarların istiqamətinin dəyişməsini təmsilçilərin bu fədai dəstələrinin uğurları ilə bağlı aldıqları xəbərlər və bununla bağlı yaşadıqları özünəinam hissi ilə əlaqələndirmək olar. Çünki məhz o günlərdə, fədai dəstələri bir neçə cəbhədə böyük qələbələr əldə etmişdilər.

Azərbaycan Xalq Konqresinin fəaliyyətinə yekun vurulmasından cəmi bir neçə gün sonra İcraiyyə Komitəsi Milli Məclisə qatılanların xalq tərəfindən seçilməsi üçün seçkilərin keçirilməsini həyata keçirdi. 1945-ci il noyabrın 27-də Güney Azərbaycanın bütün şəhər və kəndlərində Azərbaycan Milli Məclisinə seçkilər keçirildi. Ölkədə böyük təsirə malik olan bu seçkinin yalnız Azərbaycan bölgəsində keçirilməsi və qadınların ilk dəfə bu seçkidə səs vermə hüququna malik olması çox əhəmiyyətli bir tarixi dəyərə malikdir.



***1945-ci il dekabrın 6-da Azərbaycan Milli Məclisinə seçkilərin nəticələri elan olundu. 1945-ci il dekabrın 11-də fədai dəstələri Azərbaycanın bir çox şəhər və kəndlərini nəzarətə götürdülər. Lakin Marağa və Ərdəbil, Təbriz və Urmu şəhərlərində yerləşən İran orduları hələ də təslim olmaq istəmirdilər. Ancaq Azərbaycan Milli Hökumətinin rəsmi olaraq qurulmasından cəmi bir gün sonra Təbriz ordusunun sərkərdələri artıq müqavimətin faydalı olmadığını anladılar və silahlarını yerə qoymağa hazırlaşdılar.***



*Əslində Azərbaycan Demokrat Firqəsinin yazılarında "Fədai" adlandırılan milli ordu Azərbaycan Xalq Konqresi işə başlamamışdan əvvəl xalq tərəfindən qurulmuşdu və konqresin qurulduğu günlərdə Azərbaycanın Sərab və Miyana kimi bəzi şəhərləri və bir çox kəndləri bu fədaiyi dəstələrinin kontrolu altındaydı. Qənaətimizcə, Azərbaycan Xalq Konqresində çıxışların və qərarların istiqamətinin dəyişməsini təmsilçilərin bu fədai dəstələrinin uğurları ilə bağlı aldıqları xəbərlər və bununla bağlı yaşadıqları özünəinam hissi ilə əlaqələndirmək olar. Çünki məhz o günlərdə, fədai dəstələri bir neçə cəbhədə böyük qələbələr əldə etmişdilər...*

Azərbaycan Milli Məclisi 1945-ci il dekabrın 12-də səhər saat 8:00-da böyük bir həyəcan içində açıldı. Bu sessiyada Güney Azərbaycan türkləri tərəfindən seçilmiş olan 101 nümayəndədən 75-i iştirak etmişdi. Açılışda iştirak etməyən bəzi nümayəndələr qızğın qarşıdurmaların davam etdiyi cəbhələrdə könüllü olaraq fədai dəstələrinə dəstək verməkdəydilər.

### Güneydə Azərbaycan Milli Məclisinin ilk toplantısı

Deputatların andiçmə mərasimindən, parlamentin daxili reqlamentinin təsdiqindən və parlamentin sədri və sədr müavini seçildikdən sonra Azərbaycan Milli Hökumətinin yaradılması məsələsi parlamentin gündəliyinə salınıb və Pişəvəriyə etimad səsverməsi almaq üçün öz kabinetini parlamentə təqdim etmək tapşırığı verildi.

***Beləcə, Güney Azərbaycan türkləri İranda Pəhləvi hökumətinin qurulmasından 20 il sonra öz hökumətini qurdular. Azərbaycan xalqı çox sevinirdi ki, nəhayət, Azərbaycan üzərində 20 illik Pəhləvi hakimiyyətinin qara və qaranlıq dövrü başa çatdı və o gündən etibarən öz müqəddəratını özü təyin edəcək, öz gəlirini özünə xərcləyəcək, öz ana dilində məktəbə gedəcək, öz musiqisini ifa edəcək...***

***Lakin bu sadəcə bir başlanğıc idi. Azərbaycan Milli Hökuməti hansı qərarları aldı? Nə işləri gördü? Hansı nailiyyətləri əldə edə bildi? Sonunda başına nələr gəldi? Bu kimi sorğuların cavabını oxumaq üçün ikinci yazımızı gözləyin...***